## Səfir: Mərakeş Bakıda uğurlu COP29-u səbirsizliklə gözləyir

2030-cu ilədək istixana qazı emissiyalarını 45,5 faiz azaltmağı hədəfləyən Mərakeş yüksək nəticələr göstərən ölkələr sırasında yer alır. Buna görə də Mərakeş Bakıda uğurlu COP29-u səbirsizliklə gözləyir və Azərbaycana uğurlar arzulayır.

AZƏRTAC xəbər verir ki, bunu Mərakeşin Azərbaycandakı səfiri Məhəmməd Adil Embarş ölkəsinin milli bayramı münasibətilə Bakıda keçirilən tədbirdə çıxışı zamanı söyləyib.

Ölkələrimizin müxtəlif beynəlxalq forumlarda bir-birini ardıcıl olaraq dəstəklədiklərini, həmrəyliklərini, sülh və sabitliyə ortaq baxışlarını nümayiş etdirdiklərini vurğulayan diplomat Sahara məsələsində Mərakeşin ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

**AZƏRTAC**
**2024, 30 iyul**